**UOT: 327**
https://doi.org/10.59849/2409-4838.2025.1.40

# UKRAYNA MÜHARİBƏSİNDƏN ƏVVƏL VƏ SONRA TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİ

**Günay Gülməhəmməd qızı Umarova**
Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
gnay.umarova@mail.ru

*Məqalədə 2022-ci il 24 fevral Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra regional və qlobal səviyyədə yaranmış yeni geosiyasi reallıqlar kontekstində Türkiyə-Rusiya münasibətləri yenidən qiymətləndirilmişdir. Bunun üçün isə ilk öncə hər iki dövlətin 2000-ci illərdən etibarən rəqabət və əməkdaşlıq şəklində davam edən münasibətlərinin qısa tarixçəsi nəzərdən keçirilmiş,onları əməkdaşlığa sövq edən məqamlar araşdırılmışdır.*

*Müəllif qeyd edir ki, Türkiyə və Rusiya uzun illər ərzində formalaşdırdıqları strategiya vasitəsilə iqtisadi və siyasi sahədəki ikitərəfli əlaqələrin sabitliyinə nail olmuşlar və bu da Ukrayna müharibəsi kimi analoji böhranlı vəziyyətlərdə hər iki ölkə arasındakı münasibətlərin minimal zərərlə nəticələnməsinə imkan vermişdir. Rusiya və Türkiyə arasındakı əlaqələr beynəlxalq münasibətlər müstəvisində unikal nümunədir. Bu münasibətlərin xarakteri onların Qərblə geosiyasi rəqabəti ilə müəyyənləşir və Ukraynadakı müharibə bu faktı dəyişmədi.*

*Həmçinin tədqiqat işində NATO üzvü olmasına baxmayaraq həm Rusiya,həm də Ukrayna ilə ikitərəfli dialoqu davam etdirən, Qərb və Rusiya arasında bir növ körpü rolu oynayan Türkiyənin müharibənin davam etdiyi müddətdə artan geosiyasi əhəmiyyəti xüsusi vurğulanmışdır.*

***Açar sözlər***: *Türkiyə, Rusiya, ikitərəfli münasibətlər, Ukrayna müharibəsi, vasitəçilik rolu*

## GİRİŞ

Son illərin ən böyük hərbi-siyasi hadisəsi mübahisəsiz olaraq Rusiyanın Ukrayna ərazisinə hərbi müdaxiləsi sayılır. 2022-ci il 24 fevral tarixində başlanan Rusiya-Ukrayna müharibəsi əslində iki dövlət arasında uzun illərdən bəri var olan ziddiyətlərin məntiqi nəticəsi idi. Ukrayna Rusiya və Aİ ilə geniş quru və dəniz əlaqəsi olan keçmiş SSRİ respublikalar içərisində əhalisinin sayı, hərbi-siyasi və hərbi-sənaye imkanlarına görə ikinci böyük respublikadır. SSRİ-nin dağılmasından sonra Ukrayna üzərində birbaşa nəzarəti itirən Rusiya üçün bu ərazidə Aİ və NATO-nun siyasi təsirlərini genişləndirməsi yolverilməz bir hal idi. Zbiqnev Bjezinskinin sözləri ilə ifadə etsək:“*Rusiya Ukrayna üzərində nəzarəti saxlamaqla, Avrasiya imperiyasında liderlik mövqeyini qoruya bilərdi. 52 milyonluq əhalisi olan Ukrayna olmadan Rusiyanın Avrasiya imperiyası yaratmaq cəhdləri uğursuzluqla nəticələnəcəkdir*” [21, s. 114].

Hələ 21-ci əsrin ilk on illiyində Ukraynada ABŞ-nin demokratiya ideyalarının təsiri ilə alovlanan siyasi hadisələr (Narıncı inqilab, EuroMaidan hərəkatları) Rusiya tərəfindən milli təhlükəsizliyi üçün təhdid kimi qəbul edildi. NATO-nun dövlətin daxilində yaranan siyasi gərginlikdən istifadə edərək bölgəyə müdaxilə etmək cəhdi Rusiya Federasiyasının geosiyasi maraqlarını reallaşdırmasına ciddi mane yaradırdı. Belə ki, Rusiya NATO üzvü olmadığı üçün, onun öz ərazisindən başqa digər ərazilərdə həyata keçirdiyi heç bir qərara veto qoymaq hüququ yoxdur. Həmçinin NATO-nun hərbi infrastrukturunun Rusiyanın sərhədlərinə doğru genişləndirilməsi onun taktiki zərbə təyyarə-

lərinin, o cümlədən nüvə silahı daşıyıcılarının əhatə dairəsini təxminən üç dəfə artıracaqdır [22, s. 176-178].

2014-cü ildə o zamanki Ukrayna prezidenti Viktor Yanukoviçin Rusiyanın güclü müqaviməti̇ndən çəkinərək Aİ ilə tərəfdaşlıq sazişini imzalamaqdan imtina etməsi və buna etiraz olaraq əhalinin narazılıqlarının kəskinləşməsi ölkə daxilində qeyri-sabitliyi artıraraq dövləti vətəndaş müharibəsi astanasına gətirib çıxarmışdır. Yanukoviç hakimiyyətdən devrildikdən sonra,Ukrayna xarici siyasətini dəyişərək Qərb blokuna yaxınlaşmış və NATO-ya üzvlük üçün səyləri daha da artırmışdır. Bunun ardınca elə həmin ilin fevralın 27-də Rusiyanın öz rus vətəndaşlarını qorumaq adı ilə Krıma hərbi müdaxilə etməsi, daha sonra mayın 11-də rusiyayönlü separtçıların Donetsk və Luhanskdan ibarət Donbas vilayətlərində “xalq respublikaları” quraraq müstəqilliklərini elan etməsi müharibə üçün müəyyən mənada zəmin yaratmış oldu. 2022- ci il fevralın 24-də Rusiyanın Ukraynaya hərbi təcavüzü ilə başlayan və hal-hazırda da davam edən müharibə Avropanın təhlükəsizliyi ilə bağlı bütün məlum prinsipləri pozmuş və Qərb dövlətlərini Rusiya təhdidi ilə üz-üzə qoymuşdur. Rusiya isə bunu özünə qarşı yaranmış təhdidləri aradan qaldırmaq üçün beynəlxalq hüququn “preventive self-defense”(Önləyici özünümüdafiə) prinsipindən istifadə edərək güc tətbiq etdiyini iddia edir [11, s. 184]. Əksər Avropa ölkələrinin fikrincə, Rusiyanın Ukraynada mümkün qələbəsi Moskvanın neo-imperial istəklərini daha da artıra bilər. Bunun nəticəsində isə, qitə dövlətlərinin müstəqilliyi, ərazi bütövlüyü ciddi təhlükələrə məruz qala bilər. Buna görə də ABŞ başda olmaqla Qərb dövlətləri Rusiyaya demək olar ki bütün sahələrdə ağır sanksiyalar tətbiq etmək və Ukraynaya külli miqdarda hərbi, iqtisadi və siyasi dəstək verməklə rəsmi Moskvanın mövqeyini zəiflətmək strategiyasına üstünlük verirlər [8, s. 11-13].

Müharibə həm də baş verdiyi Qara dəniz regionundakı təhlükəsizlik mühitinə və bu regionun iki vacib aktoru olan Rusiya və Türkiyə arasındakı münasibətlərin dinamikasına da birbaşa təsir göstərmişdir. Xüsusilə, Türkiyə Qara dənizdə Montrö konvensiyasından irəli gələn hüquqlarına əsasən regionun,eləcə də müharibənin taleyində həlledici rola malik olub, həm Rusiya, həm də Ukrayna ilə dialoq yarada biləcək yeganə NATO üzvüdür. Buna görədə Qərb dünyasının gündəmində təkcə müharibənin nə vaxt bitəcəyi və dünya düzənini necə dəyişəcəyi deyil, həm də Rusiya-Türkiyə münasibətlərində necə əks olunacağı əsas müzakirə mövzularından birinə çevrilmişdir.

## ƏSAS HİSSƏ

### 21-Cİ ƏSR TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİNİN QISA TARİXÇƏSİ

Avrasiya regiounun iki güclü dövləti olan Rusiya və Türkiyə arasında ortaq tarixi keçmişə dayanan mədəni,iqtisadi və siyasi əlaqələr mövcuddur. Hər iki dövlətin keçmişinə nəzər salsaq görərik ki, onlar arasındakı münasibətlərin inkişaf dinamikası həmişə müsbət tempdə olmamış,rəqabət və əməkdaşlıq şəklində davam etmişdir.

21-ci əsrin əvvəllərində, xüsusilə Rusiyada Putinin və Türkiyədə Ərdoğanın hakimiyyətə gəlməsi ilə Türkiyə-Rusiya arasındakı ikitərəfli münasibətlər əməkdaşlıq və strateji tərəfdaşlıq ətrafında formalaşmışdır. Bu transformasiyanın arxasında daxili amillərlə yanaşı,beynəlxalq aləmdə baş verən dəyişikliklər qarşısında hər iki ölkənin tutduğu mövqenin də təsirləri durur. Əksər siyasi şərhçilər tərəfləri bir araya gətirən başlıca səbəbin Qərbin və ABŞ-nin həyata keçirdiyi siyasətdən narahat olması ilə əlaqələndirirlər. Hər iki dövlətin yaxın tarixində belə hallarla tez-tez qarşılaşmaq olar [3, s. 129].

Digər vacib nüans hər iki ölkənin liderlərinin müəyyən mənada ortaq siyasi baxışlara və dəyərlərə malik olmasıdır. Beləki,həm Türkiyə,həm də Rusiyanın keçmişdən gələn imperiya nostaljisi mövcuddur. Türkiyədə AKP-nin hakimiyyətə gəlməsi ilə məşhurluq qazanan Neoosmançılıq tendensiyası Rusiyanın Yeni Avrasiyaçılıq ideyaları ilə fəlsəfi və geosiyasi baxımından bənzərlik təşkil edir. Bu nəzəriyyələri birləşdirən mühüm cəhət onların Qərbə, daha doğrusu ABŞ-nin hegemonluq etdiyi dünya düzəninə alternativ olaraq irəli sürülmüş bir növ "əks-hegemon baxış"a əsaslanmasıdır [18]. Türkiyə və Rusiyanın Avropaya inteqrasiya olmaq cəhdlərinin uğursuzluğu onlarda Qərb dünyası tərəfindən rədd edilmişlik hissi yaratmışdır. Ümumiyyətlə, hər iki dövlət ABŞ-nin onların Yaxın Şərq və Avrasiyadakı maraqlarını nəzərə almasını və regionun böyük gücləri kimi tanınmasını istəyirlər. Türkiyə-Rusiya münasibətləri də məhz qarşılıqlı maraqlarla yanaşı ABŞ tərəfindən təcrid olunmaq hissi üzərində qurulmuşdur [14, s. 90].

Son illərdə Ankara və Moskvanın siyasi elitaları Qərbə öz həyati maraqlarına təhlükə kimi baxırlar. Xüsusilə, ABŞ-nin istər hərbi müdaxilə ilə (İraqda olduğu kimi) ,istərsə də rəngli inqilablarla Rusiya və Türkiyə sərhədlərinə yaxın ərazilərdə öz təsirini gücləndirməsini hər iki dövlət narahatlıqla qarşılamışdır. Moskva ABŞ-nin Avrasiyada azad və ədalətli seçkilərə dəstəyini anti-Rusiya strategiyası kimi qiymətləndirir. "ABŞ istehsalı" rəngli inqilablar yolu ilə Gürcüstanda və Ukraynada hakimiyyətə qərbyönümlü şəxslərin gətirilməsi Rusiyanın bu ərazilərdə təsirini azaltmaq cəhdləri olaraq qəbul edilir. Avrasiya regionunda rəngli inqilabları izləyən sonrakı siyasi hadisələr, xüsusilə 2008-ci ilin avqustunda baş verən Rusiya-Gürcüstan müharibəsində Türkiyənin sərgilədiyi tərəfsiz mövqeyi, sülh naminə göstərdiyi səyləri, Montrö konvensiyasının şərtlərini ciddi şəkildə yerinə yetirməsi Rusiya ilə münasibətlərinin inkişafına təkan verən mühüm bir məqam idi.

Enişli-yoxuşlu Rusiya-Türkiyə münasibətlərində milli maraqların toqquşduğu və hətta hər iki ölkə arasındakı ikitərəfli əlaqələri qırılma nöqtəsinə gətirib çıxaran səbəblər də kifayət qədər çoxdur. Onlardan ən mürəkkəbi həm Rusiya,həm də Türkiyənin Yaxın Şərqdə,xüsusilə Suriyada həyata keçirdiyi siyasi fəaliyyətlərinin uyğunsuzluğudur. Belə ki, Suriya vətəndaş müharibəsinin başlanğıcında Rusiya və Türkiyənin problemə yanaşmaları fərqli idi. Rusiya 2015-ci ilə qədər Suriyadakı siyasi hadisələrə birbaşa müdaxilə etməsə də, bu tarixdən sonra münaqişənin fəal iştirakçısına çevrildi. Rusiya ilə Türkiyə arasındakı əsas siyasi fikir ayrılığı məhz Suriyadakı mövcud rejim və prezident Bəşər Əsəd üzərində olmuşdur. Rusiya ağır silah yardımı ilə Suriyadakı mövcud rejimi dəstəklədiyi halda, Türkiyə Əsəd hökümətinə qarşı çıxaraq müxalif qüvvələrə dəstəyini açıq şəkildə sərgiləmişdir. 2015-ci il noyabrın 24-də Rusiyaya məxsus SU-24 döyüş təyyarəsinin sərhəd pozuntusuna görə Suriya sərhədində Türkiyənin F-16 qırıcı təyyarəsi tərəfindən vurulması isə onsuzda gərgin olan münasibətləri böhran vəziyyətinə çatdırmışdır. Bu hadisədən sonra Türkiyə və Rusiya arasında ikitərəfli əlaqələr demək olar ki, tamamilə kəsilmiş və bunun nəticəsində hər iki dövlətin iqtisadiyyatına milyardlarla dollar ziyan dəymişdir. Buna görə də, hadisədən bir il keçməmiş 2016-ci il iyunun 27-də prezident Ərdoğan baş verən hadisədən dolayı təssüfləndiyini və həlak olan pilotun ailəsinə baş sağlığı dilədiyini ifadə etmişdir. Bu addım Rusiya rəsmiləri tərəfindən "gözəl dostluğun başlanğıcı" kimi qiymətləndirilmişdir.

Ümumiyyətlə, Türkiyə və Rusiya arasındakı əlaqələr beynəlxalq sistemdə dövlətlər arasındakı ikitərəfli münasibətlər müstəvisində unikal bir nümunə olub, eyni sahədə əməkdaşlıq və rəqabəti ehtiva edir. Belə ki, Rusiya və Türkiyə Suriyadakı münaqişənin həll olunmasında həm rəqib, həm də tərəfdaşdırlar. Hər iki ölkə Suriyadakı böhranlı vəziyyətin həlli ilə bağlı əməkdaşlığı təmin etmək və hərbi-siyasi baxımından mövqelərini möhkəmləndirmək üçün birlikdə xüsusi mexanizmlər

işləyib hazırlamağı bacarmışdılar. Həm Rusiya, həm də Türkiyə Yaxın Şərq regionu ilə bağlı məsələlərin həlli prossesinə xarici güclərin, xüsusilə ABŞ-nin qarışmamasının tərəfdarıdırlar. Rusiya təyyarəsinin vurulmasından altı ay sonra hər iki tərəf nəinki böhranın öhdəsindən gələ bildi, həm də Suriyada döyüş bölgələrində birgə nəzarəti təmin etmək üçün əməkdaşlıqda qura bildilər. 2017-ci ilin iyulunda Rusiya və Türkiyə Suriya münaqişəsi ilə bağlı danışıqları Cenevredən Astanaya köçürməyə nail oldular. Bu, təkcə danışıqlar yerinin dəyişdirilməsi deyil, həm də danışıqlar prosesində BMT-nin və Qərbin iştirakının kənarlaşdırılması,onun üçlük çərçivəsində (Rusiya, Türkiyə, İran) məhdudlaşdırılması idi [13, s. 1276].

15 iyul 2016-ci ildə Türkiyədə baş verən uğursuz dövlət çevrilişi cəhdi iki ölkə arasındakı münasibətlərin normallaşması üçün yeni bir mərhələnin başlanğıcı oldu. Rəsmi Ankaranın dövlət çevrilişini təşkil edən, Fətullah Gülen Terror Təşkilatının (FETÖ) qurucusu olan, ABŞ-də sığınacaq tapan Fətullah Gülənin Türkiyəyə təhvil verilməsi tələblərinə ABŞ-nin məhəl qoymaması, o cümlədən baş verən hadisə ilə bağlı Türkiyənin o zamanki daxili işlər naziri Süleyman Soylunun "çevrilişin arxasında Amerika dayanır" açıqlaması Türkiyə - ABŞ münasibətlərindəki gərginliyi daha da artırdı. Bundan başqa, uğursuz dövlət çevrilişinə Avropa İttifaqı tərəfindən gözlənilən reaksiyanın verilməməsi, əksinə, Türkiyəyə qarşı tənqidlərin yönəldilməsi Türkiyənin Qərbdən uzaqlaşmasına səbəb oldu [9, s. 147-148]. Qərbin əksinə olaraq Türkiyəni FETÖ-ya qarşı mübarizəsini dəstəkləyən Rusiya ən etibarlı xarici güc kimi qəbul edildi. 17 iyulda Rusiya prezidenti Putinin prezident Ərdoğana yazdığı dəstək məktubu iki lider arasındakı etimadı və güvəni artırdı. Təsadüfi deyil ki, prezindent Ərdoğan 15 iyul hadisəsindən sonra ilk səfərini məhz Rusiyaya etmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Türkiyə-Rusiya Suriyadakı təyyarənin vurulması, 2016-ci ildə Ankarada Rusiya səfirinin öldürülməsi, o cümlədən 2020-ci ilin əvvəlində Suriyanın şimal-qərbində, Türkiyə ilə həmsərhəd olan İdlib vilayətində Rusiyanın hava hücumu nəticəsində 34 türk əsgərinin həlak olması kimi böhranlı siyasi vəziyyətlərdə belə ikitərəfli münasibətləri əməkdaşlıq xəttində saxlamağa nail olmuşlar. Məhz, belə ziddiyətli məqamlarda hər iki dövləti münasibətlərini "mehriban qonşuluq" şəraitində davam etdirməyə sövq edən əsas amil iqtisadi və hərbi-siyasi sahədəki qarşılıqlı fayda gətirən əlaqələridir. Alman Marşal Fondunun Ankara ofisinin direktoru Özgür Ünlühisarcıklı Rusiya və Türkiyə arasında olan münasibətləri "competitive cooperation" (rəqabətə əsaslanan əməkdaşlıq) kimi xarakterizə edir, yəni iki dövlət regional məsələlərdə (xüsusilə Cənubi Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərqdə) rəqabət aparsalar da,bu,onların iqtisadi,ticarət,enerji və turizm kimi digər sahələrdə əməkdaşlığına mane olmur [20].

Cənubi Qafqaz, geopolitik baxımdan həm Rusiyanın, həm də Türkiyənin maraq dairəsində olan mühüm bir regiondur. Bu regionda hər iki ölkənin strateji məqsədləri və təsir dairələri müxtəlif olsa da, müəyyən məqamlarda onların maraqları bir-birinə toqquşur və ya kəsişir. Cənubi Qafqazda rəsmi Ankara və Moskvanın maraqlarının toqquşduğu əsas məqamlardan biri, regionun təhlükəsizlik mühitinə ciddi təhdid yaradan Qarabağ məsələsi ilə bağlı olmuşdur. Geosiyasi yanaşmaları nəticəsində hər iki dövlət Ermənistan-Azərbaycan müharibəsində müxtəlif tərəfləri dəstəkləyib və bir çox hallarda Kreml Ankaranın bu məsələdə iddialı siyasətini tənqid edib. Türkiyə ilə Azərbaycan arasında ikitərəfli münasibətlər hər zaman müsbət olsa da, İkinci Qarabağ Müharibəsindən sonra iki ölkə hər zamankından daha da yaxınlaşıb. Zaman keçdikcə iki dövlət arasında hərbi əməkdaşlıq daim artmışdır. Oxşar tendensiya 2022-ci ildə Türkiyə və Azərbaycan müxtəlif hərbi təlimlər keçirəndə də müşahidə olunub. İki dövlət arasında texnologiya, enerji və iqtisadiyyat da daxil olmaqla bir çox sahələrdə mühüm əməkdaşlıqlar imzalanıb. Rusiya, Cənubi Qafqazda öz nüfuzunu qorumağa

çalışarkən, Türkiyə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək, bölgədəki təsirini artırmağa çalışır. Hər iki ölkə bu regionda öz strateji maraqlarını həyata keçirməyə səy göstərir və bəzən bu, bir-biri ilə rəqabətə gətirib çıxarır. Bütün bu sadaladığımız amillər Türkiyənin Rusiya-Ukrayna münaqişəsindəki mövqeyini anlamaq üçün olduqca vacibdir.

Türkiyənin Rusiyadan S-400 hava hücumundan müdafiə sistemlərini satın alması,həmçinin Rusiya Dövlət Atom Enerjisi Korporasiyasının (Rosatom) maliyyələşdirdiyi Türkiyənin ilk atom elektrik stansiyası olan "Akkuyu" AES-in tikintisinə başlanılması ilə Türkiyə-Rusiya münasibətləri əməkdaşlıqdan straterji tərəfdaşlıq mərhələsinə keçid etmişdir.

## UKRAYNA MÜHARİBƏSİNİN YARATDIĞI HƏRBİ-SİYASİ REALLIQLARDA TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİ

Son illərdə Avropada baş vermiş ən böyük hərbi-siyasi münaqişə olan Rusiya-Ukrayna müharibəsinin başlanması beynəlxalq səviyyədə yeni geosiyasi reallıqlar yaratmışdır. Bir çox tədqiqatçılara görə müharibənin yaratdığı əsas geostrateji nəticələrindən biri kimi 1990-ci ilin əvvəllərində formalaşmış post-soyuq müharibə dövrünün başa çatmasını qəbul etmək olar. Daha dəqiq desək, ABŞ-nin liberal dominantlıq etdiyi birqütblü dünyanı qlobal nizamda yenidən böyük güc mərkəzlərinin rəqabət apardığı,qarşıdurma meyillərinin və geniş miqyaslı müharibə risklərinin artdığı çoxqütüblü dünya düzəni əvəz edəcəkdir [15]. Yeni dünya düzəninin formalaşması prosesində də böyük güc mərkəzlərinin hər birinin özünəməxsus maraqları və bu maraqları həyata keçirmək üçün müvafiq strategiyaları mövcuddur.Yeni siyasi reallıqların Rusiya və Türkiyə münasibətlərinə təsirlərini müəyyənləşdirmədən öncə formalaşacaq olan çoxqütüblü düzənə hər iki dövlətin yanaşmalarını aydınlaşdırmaq lazımdır. Rusiya Milli Təhlükəsizlik Konsepsiyası, Xarici Siyasət Konsepsiyası kimi rəsmi sənədlərdə qlobal hegemon gücün olmadığı və böyük dövlətlər arasında mövcud olan qarşılıqlı əlaqələrin qüvvələr balansı mexanizmi çərçivəsində müəyyən olunduğu bir sistemin tərəfdarı kimi çıxış etmişdir. Həmçinin Rusiya qurulacaq yeni nizamda müəyyən prinsiplərə əsaslanan normativ strukturun yaradılmasını hədəfləyir. Qəbul edilmiş ən önəmli prinsip böyük dövlətlərin bir-birinin daxili işlərinə qarışmamasıdır. Bununla da Rusiyanın Qərbin demokratiyanın yayılması və insan haqlarının qorunması naminə irəli sürdüyü "siyasi mühəndislik təşəbbüslərinə" qarşı nümayiş etdirdiyi müxalif mövqeyi açıq-aşkar nəzərə çarpır. Rusiyanın görmək istədiyi yeni dünya nizamında bir çox güc mərkəzlərinin (ABŞ Qərb dünyasının lideri, Hindistan Cənub-Şərqi Asiyanın, Braziliya Cənubi Amerikanın, Çin Asiya-Sakit Okean hövzəsinin və Rusiya keçmiş sovet coğrafiyasının lideri kimi) mövcud olacağı proqnozlaşdırılır [1, s. 58].

Ukrayna müharibəsinin təkan verdiyi dəyişən siyasi reallıqlar çərçivəsində Türkiyənin müəyyənləşdirdiyi xarici siyasət strategiyası öz əksini 2022-ci ildə beynəlxalq ictimaiyyətə açıqlanmış Yeni Türkiyə Vizyonunda tapmışdır. Türkiyə prezidenti Ərdoğan vizyonla bağlı qiymətləndirmə apararkən qeyd etmişdir ki,"Türkiye yüz ili" konsepsiyasının məqsədi Türkiyəni regional və qlobal gücə çevirməkdir. Rəsmi Ankara beynəlxalq siyasi sistemdə öz nüfuzunu gücləndirərək sistemdəki bütün aktorlarla, o cümlədən Qərbin və ABŞ-nin rəqib gördüyü ölkələrlə belə öz milli maraqlarından çıxış edərək çoxtərəfli və ikitərəfli münasibətləri qoruyub saxlamaq və inkişaf etdirmək prinsipinə uyğun siyasət yeridir [5, s. 25-42].

Müharibə başlayandan sonra Türkiyənin Rusiyaya qarşı mövqeyi dəyişməz olaraq qalmışdır. Siyasi tərəfdən Ankara Rusiyanın Ukraynaya müdaxiləsinin qəbuledilməz olduğunu bildirsədə NATO və Aİ-nın tətbiq etdiyi sanksiyalara qoşulmağı rədd etdi. NATO üzvü kimi rəsmi Ankaranın

Moskvaya qarşı bu münasibəti bir çox Avropa dövlətləri tərəfindən birmənalı olaraq qarşılanmadı.Türkiyə isə bu mövqeyini NATO qarşısında götürdüyü öhdəliklərə hörmətlə yanaşmaqla bərabər bölgədəki milli maraqlarını da gözardı edə bilməyəcəyi ilə izah edir. Prezident Rəcəb Tayyib Ərdoğan Afrika turundan qayıdarkən təyyarədə Rusiya və Ukrayna ilə bağlı qiymətləndirmələr apararkən *"Biz nə Ukraynadan,nə də Rusiyadan imtina edə bilmərik"* ifadəsini işlətməklə Türkiyənin müharibədə bitərəf qalacağına və vasitəçi rolu oynayacağına işarət etmişdir [2].

Türkiyəli siyasi ekspert Aydın Sezerin fikrincə, Türkiyə hökuməti hələ müharibə başlamazdan əvvəl hər zaman Ukraynanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyərək ilhaq edilmiş Krımı Rusiya ərazisi kimi tanımadığını vurğulamışdır. Türkiyə Krım tatarlarının müdafiəçisi kimi çıxış edərək, Kiyevə Krım mövzusunu beynəlxalq gündəmdə saxlamağa kömək etmiş (məsələn "Krım Platforması"nın təşkilinə yardım), həmçinin Krım tatar siyasi məhbusların azad edilməsinə yardım göstərmişdir. Türkiyə Ukraynanı "Bayrakdar" pilotsuz uçuş aparatları, "Kirpi" zirehli maşınları kimi əhəmiyyətli silahlarla təmin etmişdir [23]. Təbii ki,Amerika və Avropanın Ukraynaya hərbi yardımı ilə müqayisədə Türkiyənin silah satışı az olsa da,müharibənin ilk aylarında Türkiyədən gələn pilotsuz uçuş aparatları olduqca əhəmiyyətli olmuş, o cümlədən,Rusiyanın 12 min ton ağırlığında Qara dəniz flaqmanı olan "Moskva" kreyserinin partladılmasında Bayraktar TB2 pilotsuz uçuş aparatı mühüm rol oynamışdır [16].

Bütün bunlar Rusiyanın narazılığına səbəb olsa da hər iki tərəf münasibətləri qoruyub saxlaya bilmişdir. Bunun birinci səbəbi odur ki, mövcud siyasi konyukturada nə Rusiya, nə də Türkiyə qarşılıqlı mənfəətə əsaslanan ikitərəfli münasibətlərini təhlükə altına atmaq istəməyəcəkdir. İkitərəfli əlaqələrin sabitliyi əsası 2020-ci ilin yanvarında qoyulan, Qara dənizdən keçən və 31.5 milyard kubmetr qaz tədarük edə bilən "Türk axını I" və "Türk axını II" qaz kəmərləri ilə dəstəklənir. Hətta, kəmərin dəniz hissəsinin operatoru olan Hollandiya hökuməti Avropa İttifaqının sanksiyalarını genişləndirməsi fonunda ixrac lisenziyasını ləğv etməsinə baxmayaraq, Türkiyə hökuməti hələ də Rusiya qazını bu kəmərlə almağa davam edir [19]. Türkiyə nəinki Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaları dəstəkləmir, həm də Rusiya ilə enerji əməkdaşlığını hər il daha da artırmağı hədəfləyir. Belə ki, 2022-ci ilin oktyabrında Qazaxıstanın Astana şəhərində Putin və Ərdoğan arasında keçirilən zirvə toplantısından sonra bu sahədəki əlaqələr yeni səviyyəyə keçid etmişdir. Görüşdə Rusiya lideri Türkiyəyə Rusiya qazını Avropaya ixrac etmək üçün əsas qaz mərkəzinə çevirməyi təklif etmişdir. Rusiya prezidenti Putinin sözlərinə görə,bu, Rusiya qazının Almaniyaya nəqli üçün nəzərdə tutulan "Şimal axını 1" və "Şimal axın 2" qaz kəmərlərinin artıq "etibarlı" olmaması ilə əlaqədardır [13, s. 1283].

Krımın anneksiyasından sonra Qərbin ciddi sanksiyalarına məruz qalan Rusiya iqtisadiyyatına Ukrayna müharibəsinin başlaması ilə yeniləri əlavə olunmuşdur. Nəticədə Rusiya iqtisadiyyatı İranı da geridə qoyaraq dünyanın ən çox sanksiya tətbiq edilən ölkəsinə çevrilmişdir. Belə bir vəziyyət isə, Rusiya ilə Türkiyə arasındakı ikitərəfli ticarət əlaqələrinin artırılmasına əhəmiyyətli dərəcədə təkan vermişdir. 2022-ci ildən etibarən Türkiyənin Rusiyadan idxalı 58.85 milyard dollar (əsasən qaz, neft və kömür) təşkil edib ki, bu da 2021-ci illə müqayisədə 2 dəfə çoxdur. Bu isə Rusiyanı Türkiyənin əsas ticarət tərəfdaraşlarından birinə çevirdi [17, s. 27].

İkinci vacib məqam Rusiyanın zaman-zaman üstüörtülü şəkildə dilə gətirdiyi Türkiyəyə qarşı istifadə edə biləcək təsir rıçaqlarına malik olmasıdır. Məsələn, 2021-ci ilin mayında Kreml Krım tatarlarının deportasiyasının ildönümü ilə əlaqədar Ankaranın *"Türkiyə Krımda yaşayan soydaşlarının etnik-mədəni kimliklərini, siyasi, iqtisadi və mədəni hüquqlarının qorunması uğrunda apardığı*

*mübarizəsini dəstəkləməyə davam edəcək"* mesajına sərt cavab verdi.Türkiyəni daxili işlərinə qarışmaqda günahlandıran və qarşılıqlı əsasda reaksiya verəcəklərini açıqlayan Moskva Türkiyəyə qarşı PYD/PKK kozurundan istifadə edəcəklərini eyham etdi [6, s. 20]. Rusiyanın Türkiyədəki keçmiş səfiri Albert Çernışevin dediyi kimi, *"Şüşəli evdə yaşayırsansa, qonşunun pəncərəsinə daş atma"* ifadəsi əslində Türkiyə-Rusiya münasibətlərinin avantürasını yaxşı izah edir [10, s. 778]. Ona görə də Ankara müharibə dövründə Moskva ilə münasibətlərində son dərəcə ehtiyatlı davranmağa çalışır.

**TÜRKİYƏNİN VASİTƏÇİLİK ROLU**

Ukrayna müharibəsinin 2 ildən artıq davam etməsi dünya dövlətlərini BMT-nin beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək üçün üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələ bilmədiyi reallığı ilə üzləşdirmişdir. Nəzərə almaq lazımdır ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qəbul etdiyi qərarlar məsləhət xarakteri daşıyır və heç bir məcburi qüvvəyə malik deyil. Bundan əlavə aydındır ki, BMT-nin hər hansı münaqişəyə müdaxiləsi beynəlxalq sülh və təhlükəsizliyin bərqərar edilməsində əsas səlahiyyətli orqan olan Təhlükəsizlik Şurasının beş daimi üzvünün təsdiqini tələb edir. BMT-nin fəaliyyətinin effektivsizliyini vurğulamaq üçün, Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan dəfələrlə müxtəlif beynəlxalq platformalarda çıxışları zamanı "*Dünya beşdən böyükdür"* bəyənatını səsləndirmişdir. BMT Baş Assambleyasının 69-cu iclasında çıxışı zamanı bu quruma olan inamının ciddi şəkildə zədələndiyini qeyd edən prezident Ərdoğan demişdir:*"BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvünün BMT-ni dünya reallıqlarına sığmayan şəkildə zərərsizləşdirməsi qlobal vicdanın qəbul edə biləcəyi bir vəziyyət deyil"[ 4, s. 21].*Bununla da, o, liberal nizamın daha şəffaf, ədalətli olmasını və təkmilləşdirilməsini tələb etmişdir. Rusiya-Ukrayna müharibəsi bir növ Türkiyəyə gözlədiyi tarixi fürsəti yaratmışdır.Avropa və Asiyanı birləşdirən transkontinental ölkə kimi Türkiyə özünü münaqişənin kəsişməsində tapır və bu, ona münaqişənin bütün tərəfləri ilə diplomatik dioloqu davam etdirə bilən yeganə aktor kimi siyasi üstünlük qazandırır. Türkiyə bu fürsətdən düzgün şəkildə istifadə edə bilsə müharibədən sonrakı qurulacaq nizama kənar müşahidəçi kimi deyil, yeni status-kvonun memarlarından biri kimi daxil ola biləcəkdir. Həqiqətən hazırki vəziyyətdə Qərb dövlətlərinin müharibəni diplomatik yolla həll etmək üçün heç bir cəhd göstərməməsi, əksinə,Ukraynaya külli miqdarda hərbi və iqtisadi yardım etməklə mövcud hərbi münaqişəni daha da qızışdırması, Türkiyənin isə diplomatik yollarla gərginliyin qarşısını almağa çalışması prezident Ərdoğanın dəfələrlə səsləndirdiyi bəyanatının bir növ təsdiqi kimi çıxış edir.

Türkiyənin bu müharibədə məqsədi ilk növbədə münaqişənin eskalasiyasının qarşısını almaqdır. O,bu məqsədinə hər iki ölkə ilə sabit münasibətləri qoruyub saxlamaqla nail olmağa çalışır. Türkiyədəki hakim elita Qərb dövlətlərinin Rusiyaya qarşı bu cür sərt mövqedə durmasının müharibənin diplomatik yolla həllini daha da çətinləşdirdiyi qənaətindədirlər. Sistemə təsir etmək imkanına malik BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Rusiyanın beynəlxalq platformalardan tamamilə kənarlaşdırılması münaqişənin həllinə heç bir müsbət töhfə verməyəcəkdir. Bunula bağlı Prezident administrasiyasının sözcüsü, Milli İstihbarat Təşkilatının hazırki rəhbəri İbrahim Kalın çıxışlarının birində qeyd etmişdir: "*Rusiyanın Ukraynaya qarşı müharibəsini tamamilə rədd etsək də, Rusiyanın da iddialarına baxılmalıdır,çünki bu müharibədən sonra Rusiya ilə Qərb bloku arasında yeni təhlükəsizlik arxitekturası qurulmalıdır. Biz daha bir soyuq müharibəyə dözə bilmərik - bu, hamı üçün pis olacaq və bütün beynəlxalq siyasi və maliyyə sistemi üçün baha başa gələcək. Hərbi, siyasi, iqtisadi və digər sahələrdə Rusiya ilə bağlı verdiyimiz hər bir qərar, atdığımız hər addım bu yeni təhlükəsizlik arxitekturasına təsir edəcəkdir*".

Türkiyənin vasitəçilik səyləri ilə 2022- ci il 24 fevral-10 mart tarixləri arasında Ukrayna prezidenti Zelenskiy ilə üç, Rusiya prezidenti Putin ilə bir dəfə görüş keçirilmiş,bundan başqa dəfələrlə telefon danışıqları aparılmışdır. Danışıqların əsas mövzusu daha çox humanitar və iqtisadi fəlakətə səbəb olmadan tərəflər arasında atəşkəsi təmin etmək və müharibəni mümkün qədər tez bitirməkdir. İki tərəfli və üç tərəfli görüşlər zamanı müharibənin sona çatması ilə bağlı konsensus əldə olunmasa da,əsirlərin mübadiləsi,"Taxıl dəhlizi"nin açılması kimi təşəbbüslərin uğurla nəticələnməsi gözardı ediləməyəcək qədər əhəmiyyətlidir [7, s. 262]. Bu müharibənin yol açdığı ən böyük probelmlərdən biri məhz qida təhlükəsizliyi ilə bağlıdır. Belə ki, Rusiya və Ukrayna ən böyük taxıl ixracatçılarından biri olub,dünyanın dörddə birini təmin edir. Buna görə də müharibə səbəbindən taxıl ixracının dayandırılması nəinki buğdanın qiymətini artırmış,həm də bu ixracatdan aslı vəziyyətdə olan Yaxın Şərq və Şimali Afrika dövlətlərində ciddi ərzaq böhranına gətirib çıxarmışdır. Türkiyənin apardığı uğurlu siyasət nəticəsində Ukrayna və Rusiya ayrı-ayrılıqda həm Türkiyə, həm də BMT ilə taxılın təhlükəsiz şəkildə dünya bazarlarına daşınması üçün İstanbul memorandumunu imzaladılar [12]. Bu tarixi sənəd dünyanın əksər ölkələrini ciddi bir aclıq təhlükəsindən xilas etmiş oldu. Təbii ki, bu uğurların əldə olunmasında Türkiyənin həyata keçirdiyi balanslaşdırılmış siyasət və prezident Ərdoğanın Rusiyalı həmkarı Putin ilə yaxın münasibəti olduqca təsirli olmuşdur.

Müharibənin davam etdiyi cari siyasi vəziyyətdə Türkiyə, hər iki ölkə ilə münasibətləri davam etdirərək, prosesləri diplomatik yolla uğurla idarə edir. Tərəflər arasında mövcud gərginliyin azaldılması və münaqişənin sülh yolu ilə həlli üçün təşəbbüs göstərməyə davam edir. Şübhəsiz ki, Türkiyənin vasitəçilik fəaliyyətləri, həmçinin etibarlı tərəfdaş mövqeyi müharibənin gedişatına təsir göstərə bilər. Ancaq bu rolu nə qədər uğurla yerinə yetirə biləcəyi, beynəlxalq güclərlə olan münasibətlərinə və müharibənin necə inkişaf edəcəyinə bağlı olacaqdır.

## YEKUN NƏTİCƏ

Ümumilləşdirərək qeyd edə bilər ki, Rusiya-Türkiyə münasibətləri olduqca mürəkkəb xarakterə malik olub, özündə həm rəqabət, həm də əməkdaşlığı ehtiva edir. Çox əsrlik tarixə malik olan bu münasibətlər, xüsusilə son 20 ildə Rusiya və Türkiyədəki hakimiyyət dəyişikliklərindən sonra yüksələn xəttlə davam etmiş, zamanın sınaqlarından uğurla çıxa bilmişdir. Hər iki dövləti əməkdaşlığa sövq edən bir çox amillər mövcuddur ki, onların ən başlıcası iqtisadi sahədəki qarşılıqlı fayda gətirəcək əlaqələridir. Digər vacib məqam isə hər iki tərəf Qərbi öz starteji məqsədlərinə çatmaq üçün maneə kimi qiymətləndirirlər. Buna görə də həm Rusiya, həm də Türkiyə çalışır ki, hətta maraqlarının toqquşduğu regionlarda belə ,ziddiyyətləri hər hansı üçüncü dövlətin müdaxiləsi olmadan öz aralarında həll etməyə müvafiq olsunlar.

Ukrayna müharibəsi Türkiyə-Rusiya münasibətlərinin sınaqdan keçirildiyi yeni bir dönəmi başlatmışdır. Mövcud siyasi konyukturada Türkiyə öz milli maraqlarını üstün tuturaq hava məkanını Rusiyaya açıq tutmuş,Qərbin sanksiyalarında iştirak etməyəciyini bildirmiş,Rusiya ilə mövcud iqtisadi və siyasi əlaqələrini davam etdirmiş yeganə NATO ölkəsi kimi çıxış etmişdir. Digər tərəfdən isə o, Ukraynanın ərazi bütövlüyünü müdafiə edərək beynəlxalq hüquq normalarına uyğun fəaliyyət göstərən,beynəlxalq birliyin etibarlı üzvü kimi mövqeyini qoruyub saxlaya bilmişdir. NATO üzvü olmasına baxmayarq, Rusiyaya qarşı münasibətdə müstəqil bir strategiya formalaşdıran Türkiyənin həyata keçirdiyi balanslaşdırılmış siyasəti hər iki ölkə arasındakı münasibətlərin inkişaf dinamikasına da müsbət təsir göstərmişdir. Həmçinin, Türkiyənin münaqişənin hər iki tərəfi ilə diplomatik kanalları açıq tutması,vasitəçilik təşəbbüslərini davam etdirməsinin həm beynəlxalq sülh və təhlükəsizliyin bərqarar olması,həm də Türkiyənin beynəlxalq siyasi sistemdəki nüfüzunun artması baxımından əhəmiyyəti danılmaz bir faktdır.

## ƏDƏBİYYAT

1. Alım, E. Rusya'nin Büyük Güç Aktivizminde Çok Kutuplu Dünyanin Önemi //- Antalya : Asya Studies, – 2019, 2 (8), – s. 53-65.
2. https://www.ntv.com.tr/turkiye/cumhurbaskani-erdogan-rusyadan-da-ukraynadan-da-vazgecme-miz-mumkun degil, QbFvVaiQTkClCa8unMwwgA
3. Çelikpala, M. Rekabet ve İşbirliği İkileminde Yönünü Arayan Türk-Rus İlişkileri // -Ankara:Bilig dergisi, – 2015, 72, – s. 117-144.
4. Dünya 5'ten Büyüktür Yeni Türkiye Vizyonu eylül 2014-ağustos 2016 / - Ankara: Cumhurbaşkanlığı yayınları, – 2017. – 420 s.
5. Güney, N.A. Türkiye'nin yeni yüzyıl vizyonu, batı ve liberal dünya düzeni tartışmaları // -İstanbul:Türk dış politikası yıllığı, – 2022. – s. 25-42.
6. Oktav, Z. Ukrayna Savaşı'nın Türkiye-Rusya ilişkilerine olası etkileri: Fırsatlar ve krizler //-İstanbul: Bilge Strateji, – 2022, 13 (23), – s. 17-22.
7. Özdemir, G.Ş. Türkiye'nin Rusya ve Kafkasya politikalari 2022 // – İstanbul:Türk Dış Politika Yıllığı, – 2022. – s. 257-276.
8. Rusya'nın Ukrayna'yı İşgali ve Uluslararası İlişkiler Çalıştayı Sonuç Raporu / derleyen. Dr. M. Doğrul-Ankara: Türkiye Bilimler Akademisi, – 2022. – 36 s.
9. Tüfekçi, Ö. İşbirliği ve Kriz İkileminde Türkiye-Rusya İlişkileri // – İstanbul:AK Partinin 15. Yılı Dış Politika, – 2017. – s. 135-155.
10. Yılmaz, S. Rusya'nın Ortadoğu'da Kürt Kozu ve PYD Politikası // – Ankara:Yeni Türkiye, – 2016, 86, – s. 773-788.
11. Yumuşak, T. Türkiye'nin Rusya-Ukrayna savaşı'ndaki arabuluculuk rolünün değerlendirilmesi // – İzmir: Dokuz Eylül Üniversitesi Hukuk Fakültesi Dergisi, – 2023, 25 (1), – s. 165-194 .
12. Bağış, B. Food Inflation and Security: The Crisis, Prices, and the Grain Deal // – Ankara: Different Dimensions of Environmental Security in Türkiye and Beyond, – 2023. – p. 199-217.
13. Cheterian, V. Friend and Foe: Russia–Turkey relations before and after the war in Ukraine // – London: Small Wars & Insurgencies, – 2023, 34 (7), – p. 1271-1294.
14. Fiona, H., Taspinar, O. Turkey and Russia: Axis of the Exluded? // – Columbia:Survival, – 2006, 48 (1), – p. 81-92.
15. Flockhart, T., Korosteleva, E. War in Ukraine: Putin and the Multi-Order World // – London : Contemporary Security Policy, –2022, 43 (3), – p. 466-481.
16. https://www.forbes.com/sites/davidhambling/2022/04/14/ukraines-bayraktar-drones-helped-destroy-russian-flagship/
17. Parmeter, I. Strategic ambiguity: Turkey, Russia and the war in Ukraine // – Sydney: Australian and New Zealand Journal of European Studies, – 2023, 15 (2), – p. 18-32.
18. https://www.ui.se/utrikesmagasinet/analyser/2017/januari/neo-ottomanism-vs-neo-eurasianism/
19. https://www.dailysabah.com/business/energy/turkstream-says-netherlands-revoked-its-license-to-continue-gas-exports
20. https://www.iai.it/en/pubblicazioni/turkey-vis-vis-ussias-war-against-ukraine
21. Бжезинскии, З. Великая Шахматная Доска / З.Бжезинскии. – Москва: Международные отношения, – 1999. – 256 с.
22. Гиниятов, Ф.М. Расширение НАТО на восток и позиция России // – Москва:Вестник экономики, права и социологии, – 2012. № 1, – с. 176-178.
23. https://www.dw.com/ru/vojna-v-ukraine-k-chemu-privedet-aktivnyj-nejtralitet-turcii/a-61306460

## TURKISH-RUSSIAN RELATIONS BEFORE AND AFTER THE UKRAINIAN WAR

**G.G. Umarova**

The article re-evaluated Turkish-Russian relations in the context of new geopolitical realities that arose at the regional and global levels after Russia's military intervention in Ukraine on February 24, 2022. To this end, first of all, a brief history of the relations between the two states, which have lasted since the 2000s in the form of competition and cooperation, was reviewed, and the factors that encourage both states to cooperate were investigated.

The author notes that Türkiye and Russia have achieved stability in bilateral relations in the economic and political spheres thanks to the strategy they have developed over the years, which allowed relations between the countries in analogous crisis situations, such as the Ukrainian war, to cause them minimal damage. The relations between Russia and Türkiye are a unique example in the system of international relations. The nature of these relations is determined by their geopolitical rivalry with the West, and the war in Ukraine has not changed this fact.

The study also highlights specifically the growing geopolitical importance of Türkiye during the war, which, despite its membership in NATO, continues a bilateral dialogue with both Russia and Ukraine, playing the role of a kind of bridge between the West and Russia.

**Keywords:** *Türkiye, Russia, bilateral relations, Ukrainian war, mediation role*

## ТУРЕЦКО-РОССИЙСКИЕ ОТНОШЕНИЯ ДО И ПОСЛЕ УКРАИНСКОЙ ВОЙНЫ

**Г.Г. Умарова**

В статье была проведена переоценка турецко-российских отношений в контексте новых геополитических реалий, возникших на региональном и глобальном уровнях после военной интервенции России в Украину 24 февраля 2022 года. С этой целью, прежде всего,была рассмотрена Краткая история взаимоотношений обоих государств, которые продолжались с 2000-х годов в форме конкуренции и сотрудничества, исследованы моменты, побуждающие оба государства к сотрудничеству.

Автор отмечает, что Турция и Россия добились стабильности двусторонних отношений в экономической и политической сферах благодаря стратегии, которую они выработали на протяжении многих лет, что позволило отношениям между странами в кризисных ситуациях, таких как украинская война, нанести им минимальный ущерб. Отношения между Россией и Турцией являются уникальным примером в системе международных отношений. Характер этих отношений определяется их геополитическим соперничеством с Западом, и война на Украине не изменила этого.

Также в исследовании особо подчеркивается растущее геополитическое значение Турции в ходе войны,которая,несмотря на членство в НАТО, продолжает двусторонний диалог как с Россией, так и с Украиной, играя роль своеобразного моста между Западом и Россией.

**Ключевые слова:** *Турция, Россия, двусторонние отношения, украинская война, посредническая роль*